# MÖHTƏŞƏM ZƏFƏRİN 5 İLİ

ANALİTİKA

**Noyabr ayı xalqımız üçün əlamətdar aylardan biridir desək, yanılmarıq. Bu ay qədirbilən Azərbaycan xalqı Zəfər Günü, Dövlət Bayrağı Günü və Konstitusiya Gününü böyük qürur hissi ilə qeyd edir. Bu il Konstitusiyamızın qəbul olunmasının 30-cu, Vətən müharibəsində qazandığımız Zəfərin 5-ci ildönümü ölkəmizdə elan olunmuş "Konstitusiya və Suverenlik İli"nə təsadüf edir. Bu şanlı tarix təkcə bizim üçün yox, gələcək nəsillər üçün də qürur mənbəyi olaraq qalacaq.**

Bəli, düz beş il öncə Vətən müharibəsində qələbəni bizə bəxş edən qüdrətli Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni əzəli torpaqlarımızdan qovdular. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu Qələbəni belə dəyərləndirmişdir: "Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir".

Xalqımızın torpaqlarımızı döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu Qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik".

"Dəmir yumruq" əməliyyatının məntiqi və uğurlu sonluğu olan bu Qələbə yalnız Azərbaycan Silahlı Qüvvələrinin deyil, bütün xalqımızın Zəfəri idi. Lakin Qarabağ torpağında Azərbaycan Bayrağı dalğalanandan sonra da regionun bəzi ərazilərində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silah-





## Qələbəmizin rəmzlərindən olan Zəfər abidəsi və Zəfər muzeyinin yaradılması xalqımızın, müzəffər ordumuzun göstərdiyi misilsiz qəhrəmanlığa, qazandığı şanlı Zəfərə və şəhidlərimizin əziz xatirəsinə dərin ehtiramın təcəssümüdür





zəbt etmiş Ermənistan silahlı qüvvələrinə qarşı apardığı müharibə də belə müqəddəs mahiyyət daşıyırdı. Bu, əsrlər boyu ədalətə, haqqa sığınan bir xalqın milli-mənəvi varlığı, qüruru, eləcə də Vətən, doğma yurd, ata-baba əraziləri uğrunda mübarizəsi idi. 2020-ci il noyabrın 8-də xalqımızın tarixinə ən parlaq və möhtəşəm qələbələrdən biri yazıldı. Vətən müharibəsində Şuşa qalasının və şəhərinin işğaldan azad edilməsi çox ciddi əhəmiyyətə malik hadisə idi. Bu, demək olar ki, müharibənin taleyini həll edən amilə çevrildi. Xalqımızın Ulu Öndəri Heydər Əliyev əbəs yerə demirdi: "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur". Şuşa uğrunda aparılan döyüşlərdə atılan cəsarətli addımlar dünya hərb tarixinin misilsiz bir səhifəsini təşkil edir. Azərbaycan hərbçiləri dağlar qoynunda yerləşən Şuşa şəhərini erməni işğalçılarından azad etdilər. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsini və 8 Noyabrın tarixi əhəmiyyətini belə səciyyələndirirdi: "Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni dö-

lı dəstələri vəziyyəti gərginləşdirməyə çalışır, vaxtaşırı terror aktları törətməkdə davam edir, təhlükə mənbəyi olaraq qalırdı. 2023-cü il sentyabrın 18-də düşmənin basdırdığı minanın partlaması nəticəsində 6 nəfər, o cümlədən polis əməkdaşları şəhid oldu. Artıq növbəti təxribat vəziyyəti dözülməz hala gətirmişdi. Sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən başladılan antiterror əməliyyatı uğurla nəticələndi. Azərbaycan ərazisindəki Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin ön xətdə və dərinlikdə olan mövqeləri, atəş nöqtələri, döyüş vasitələri və bazaları yüksək dəqiqlikli silahlarla vurularaq məhv edildi. Cəmi bir sutkaya yaxın müddətdə davam edən antiterror əməliyyatı növbəti dəfə Azərbaycan Ordusunun gücünü nümayiş etdirdi. 23 saat 43 dəqiqə sonra düşmən ağ bayraq qaldıraraq təslim olmağa məcbur oldu. Bununla da, Qarabağda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin, qondarma rejimin mövcudluğuna son qoyuldu, Qarabağ mövzusu birdəfəlik bağlandı.

Vətən müharibəsi məntiqi sonluğuna çatdı, şanlı Zəfərlə yekunlaşdı. Azərbaycan münaqişə və təcavüz nəticəsində pozulmuş ərazi bütünlüyünü öz gücü, Müzəffər Ali Baş Komandanın qətiyyəti, zabit və əsgərlərin böyük qəhrəmanlıq və şücaəti, xalqın möhtəşəm birliyi sayəsində bərpa edərək yeni məqsədlərə doğru uğurlu addımlar atır. Beş ildir ki, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbəni - Zəfər Gününü böyük qürur və iftixar hissi ilə qeyd edir. Bu müqəddəs gündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qələbəmizin rəmzlərindən olan Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər. Zəfər muzeyi Prezident İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan-Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş". Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun şəkildə çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır. Muzeyin girişində tarixi Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışından fikirlər əks olunur. Muzeyi əhatə edən divarda 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adı ehtiram əlaməti kimi həkk edilib. Divarboyu axan su daimi həyat mənbəyi kimi şəhidlərimizin qəhrəmanlıqları ilə ölümsüzlüyə qovuşduqlarını, hər zaman qəlbimizdə yaşadıqlarını simvolizə edir. Muzeyin ekspozisiya zallarında isə Qarabağda Vətən müharibəsinədək və Zəfər Günündən sonra həlak olmuş şəhidlərimizin adları var.



Xatırladaq ki, 2024-cü il noyabrın 8-də kompleksdə Zəfər parkının açılış mərasimi keçirilmişdi. Açılış tədbirində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev iştirak etmişlər. Dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Dövlət Bayrağını ucaltmış, parkdakı Zəfər abidəsinin önünə əklil və gül dəstələri qoymuşdu. Kompleksdə Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan park, onun aşağısında Zəfər muzeyi yaradılıb. Burada şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı inşa olunub. Onun hündürlüyü 44 metr, sütunlarının sayı 44-dür. Muzeydə bir çox önəmli rəmzlər nümayiş etdirilir.

Qələbənin beşinci ildönümü münasibətilə paytaxtın Azadlıq meydanında keçirilən parad da onu göstərir ki, çoxəsrlik Azərbaycan tarixində xalqımız belə bir şanlı qələbənin şahidi olmamışdır. Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərinin, hərbi birləşmə və hərbi tədris müəssisələrinin şəxsi heyətlərinin, hərbi texnikaların iştirak etdiyi paradda ölkə ictimaiyyəti bir daha dövlətimizin hərbi gücünün, ordumuzun döyüş və qələbə əzminin əyani şahidi oldu.





Sevinc Azadi,
"İki sahil"